# "Nəsimi ili"nin töhfələri


Budapeştdə İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş ədəbi-musiqili tədbir...


Bişkek şəhəri... Manas Universiteti...


Milli Kitabxanada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə keçirilən "Beynəlxalq Əməkdaşlıq Zalı"nın açılış mərasimi


TÜRKSOY-un qərargahında keçirilən "Nəsimi ili"nin açılış mərasimindən

Klassik və müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin yubileylərinin qeyd olunması və bu məqsədlə həm respublikamızda, həm də xarici ölkələrdə irimiqyaslı tədbirlərin təşkili artıq bir ənənə halı alıb. Görkəmli şəxsiyyətlərin yubileylərinin dövlət səviyyəsində keçirilməsi barədə Azərbaycan Respublikası Prezidentinin hər il bir neçə sərəncam imzalaması isə bu tədbirlərin daha yüksək səviyyədə reallaşmasına hərtərəfli imkanlar açır. Hətta hər ilin bir görkəmli şəxsiyyətə həsr olunması ənənəsi də geniş vüsət almışdır ki, son vaxtlar Molla Pənah Vaqif, İmadəddin Nəsimi dühasına münasibətdə bunun əyani nümunələrini görürük.

Böyük Azərbaycan şairi Seyid İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyinin möhtəşəm şəkildə qeyd edilməsinin təmini məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında" 11 yanvar 2019-cu il tarixli sərəncam imzalayıb və həmin sənədə müvafiq, Azərbaycan Milli Kitabxanasında bu il yanvar ayının 24-də "Nəsimi ili"nin açılış mərasimi reallaşıb. Respublikamızın Mədəniyyət naziri cənab Əbülfəs Qarayev, Milli Məclisin deputatları, görkəmli ədəbiyyatşünas alimlər, Bakı şəhəri mədəniyyət müəssisələri işçilərinin və oxucuların iştirak etdiyi tədbir zamanı Milli Kitabxanada ilboyu daimi fəaliyyət göstərəcək "İmadəddin Nəsimi – 650" guşəsinin də açılışı olmuşdur.

Tədbir zamanı Mədəniyyət naziri Əbülfəs Qarayev Milli Kitabxananın Mədəniyyət Nazirliyi ilə birlikdə yeni və mühüm bir layihəyə – "Milli Mədəni Sərvətlərimizin Vətənimizə Qayıdışı" layihəsinin icrasına start verildiyini də elan etdi. Cənab nazir bu layihənin əsas məqsədinin bir vaxtlar müəyyən səbəblərdən respublikamızdan çıxarılaraq müxtəlif ölkələrə aparılan və hazırda həmin ölkələrin kitabxana və muzeylərində saxlanılan mədəni sərvətlərimizin – görkəmli sənətkarlarımıza məxsus əlyazmaların surətlərinin ölkəmizə – əsl vətəninə qaytarılmasına nail olmaqdan ibarətliyini diqqətə çatdırdı.

Ortaq türk mədəniyyətimiz və ədəbiyyatımızın təbliğində görkəmli mədəniyyət və ədəbiyyat xadimlərinin yubileylərinin türkdilli ölkələrdə layiqli şəkildə keçirilməsinə böyük önəm verən Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı –TÜRKSOY əhəmiyyətli rol oynayır. Son illərdə Milli Kitabxana Mədəniyyət Nazirliyi və TÜRKSOY təşkilatı ilə birlikdə dahi M.F.Axundzadənin, Üzeyir Hacıbəylinin, Qara Qarayevin, İlyas Əfəndiyevin, Səməd Vurğunun, Bəxtiyar Vahabzadənin, M.P.Vaqifin və digər klassiklərimizin yubileylərini nəinki Ankarada, İstanbulda və Bakıda, Astanada, Bişkekdə, Şimali Kiprdə, başqa türkdilli ölkələrdə də geniş qeyd etmişdir.

Bu il TÜRKSOY Beynəlxalq Təşkilatı tərəfindən də "Nəsimi ili" elan olunub və martın 6–7-də Ankarada TÜRKSOY-un iqamətgahında, eləcə də İstanbulda Türk Ədəbiyyatı Vəqfində Azərbaycanın Mədəniyyət naziri cənab Əbülfəs Qarayevin iştirakı ilə "Nəsimi ili"nin açılış mərasimi baş tutub. Açılış mərasimləri Əməkdar artist Feyruz Səxavətin rəhbərliyi ilə "Muğam üçlüyü"nün və bədii qiraətçilərin iştirakı ilə Türkiyə Cümhuriyyəti Cümhurbaşqanlığının Simfonik Orkestrasının konsert salonunda keçirilən musiqili-ədəbi məclislə müşayiət olunmuşdur. Hər iki tədbir zamanı Azərbaycan Milli Kitabxanasının fondundan geniş kitab sərgiləri də keçirilib. Həmin tədbirlər çərçivəsində Türkiyə Milli Kitabxanasının, İstanbul Millət Kitabxanasının, məşhur Süleymaniyyə Kitabxanasının və Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin Əlyazmalar Yüksək Qurumunun rəhbərlikləri ilə Türkiyə kitabxana və muzeylərində mühafizə olunan İmadəddin Nəsimiyə mənsub əlyazmaların surətlərinin və digital variantlarının Azərbaycan Milli Kitabxanasına verilməsi imkanları da nəzərdən keçirilib.

Milli Kitabxananın Mədəniyyət Nazirliyi ilə birlikdə "Nəsimi ili" çərçivəsində növbəti tədbiri Macarıstanın paytaxtı Budapeşt şəhərində baş tutmuşdur. Aprelin 24-də dövlətimizin başçısının "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin keçirilməsi haqqında" 15 noyabr 2018-ci il tarixli sərəncamına müvafiq olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 yanvar 2019-cu il tarixli 38s nömrəli sərəncamının icrası məqsədilə Azərbaycanın Mədəniyyət Nazirliyi, Macarıstandakı Səfirliyimiz, Azərbaycan Milli Kitabxanası və Budapeştdəki Yunus Əmrə İnstitutu ilə birlikdə Budapeştdə İmadəddin Nəsimiyə həsr olunmuş ədəbi-musiqili tədbir keçirildi. Tədbir Yunus Əmrə İnstitutunun Budapeştdəki binasının foyesində Azərbaycan Milli Kitabxanasının fondlarında mühafizə olunan Nəsiminin əsərlərindən və onun haqqında ədəbiyyatdan ibarət geniş kitab sərgisinin nümayişi ilə açıldı. Tədbirə Mədəniyyət nazirinin birinci müavini cənab Vaqif Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti qatılmışdır. Azərbaycanın Macarıstandakı səfiri prof. Vilayət Quliyev, Mədəniyyət nazirinin birinci müavini cənab Vaqif Əliyev, Macarıstanın Türkiyədəki keçmiş səfiri, Türk Şurasının Macarıstan ofisinin rəhbəri, türkoloq-alim Yanoş Hovari, bu sətirlərin müəllifi və Türkiyə Cümhuriyyətinin Macarıstandakı səfiri cənab Əhməd Akif Oktay çıxış etdi.

Milli Kitabxananın Mədəniyyət Nazirliyi və TÜRKSOY Beynəlxalq Təşkilatı ilə birlikdə "Nəsimi ili" çərçivəsində keçirdiyi növbəti beynəlxalq tədbir Azərbaycanın Qırğızıstandakı Səfirliyinin və Qırğızıstan Milli Kitabxanasının dəstəyi ilə 15–18 may 2019-cu il tarixlərində paytaxt Bişkekdə keçirilən 12 türkdilli respublikanın milli kitabxanalarının direktorlarının iştirakı ilə "Rəqəmsal əsrdə kitab və mütaliə" mövzusunda Beynəlxalq Konfrans çərçivəsində reallaşdı. Burada da Qırğızıstan Milli Kitabxanasının foyesində Azərbaycan Milli Kitabxanasının fondunda mühafizə olunan Nəsiminin əsərlərindən və onun haqqına ədəbiyyatdan ibarət kitab sərgisi nümayiş olundu.

Yubiley tədbirində Azərbaycanın Qırğızıstandakı səfiri cənab Hidayət Orucov, Qırğızıstan Respublikası Mədəniyyət, İnformasiya və Turizm naziri Jamankulov Azamat Kaparoviç, Avrasiya Kitabxanalar Assambleyasının prezidenti Aleksandr Visliy, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli, Milli Kitabxananın direktoru kimi mən və TÜRKSOY təmsilçisi Elçin Qafarlı çıxış etdik.

Mayın 18-də Qırğızıstanın Bişkek şəhərindəki Manas Universitetində İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş ikinci tədbir keçirilib.

Tədbir Qırğızıstandakı Səfirliyimiz, TÜRKSOY təşkilatı, Manas Universiteti, Azərbaycan Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə baş tutmuşdur. İlk növbədə, Manas Universitetinin foyesində Azərbaycan Milli Kitabxanasının fondundakı Nəsiminin əsərlərindən ibarət kitab sərgisi açıldı. Sonra isə tədbir iştirakçılarına və tələbələrə "Nəsimi" bədii filmi təqdim edildi. Manas Universitetinin rektoru professor Asılbek Kulmurzayev, Qırğızıstan Respublikasındakı səfirimiz cənab Hidayət Orucov, AMEA Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli və başqaları çıxış etmişlər. Sonda incəsənət xadimlərinin ifasında Nəsiminin şeirləri və sözlərinə yazılmış mahnılar səsləndi.


"Nəsimi ili" ərzində Milli Kitabxanada toplanan əlyazmalar


İMADƏDDİN NƏSİMİ. Divan. Həcmi 158 vərəq, ölçüsü 13,5x19 sm., xətti təliq, farsca əlyazmanın əsli Konya Mövlana muzeyi kitabxanasında saxlanılır

Sentyabrın 27–30-da Bakıda keçirilən ənənəvi VI Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində təşkil etdiyimiz "Milli Kitabxanalar Mobil informasiya mərkəzləri kimi" Beynəlxalq Praktik Konfrans zamanı Milli Kitabxananın Sərgi zalında "Nəsimi ili" ərzində Milli Kitabxananın

Mədəniyyət Nazirliyi ilə birlikdə icra etdiyi "Milli Mədəni Sərvətlərimizin Vətənimizə Qayıdışı" layihəsinin icrası nəticəsində dünya ölkələrinin kitabxanalarından toplanan Nəsimi əlyazmalarının surətlərinin və digital nüsxələrinin "Nəsimi əlyazmaları dünya kitabxanalarında" mövzusunda geniş sərgisi təşkil olunub. Dünyanın 13 ölkəsinin Milli Kitabxanalarının direktorlarının iştirakı ilə Azərbaycan Respublikasının Mədəniyyət naziri cənab Əbülfəs Qarayev və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva sərginin təntənəli açılışını etmişlər. Bu sərgidə Türkiyədən, İrandan, Çexiyadan, Misirdən, Bosniyadan, Amerikadan gətirilmiş türk, ərəb və fars dillərində olan 32 Nəsimi əlyazmasının surəti və digital nüsxəsi nümayişlənib. Sərgidə həmçinin indiyədək Azərbaycan elminə və alimlərinə naməlum qalan və burada ilk dəfə nümayiş olunan dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xəmsə"sinin əlyazmasının surəti də sərgi iştirakçılarına təqdim olundu. Açılış mərasimində çıxış edən Mədəniyyət naziri Əbülfəs Qarayev Azərbaycan Milli Kitabxanasının çağırışına səs verərək böyük məmnuniyyətlə öz fondlarında mühafizə olunan Nəsimi əlyazmalarının surətlərini təqdim edən Milli kitabxanaların rəhbərlərinə minnətdarlığını bildirdi.


Milli Kitabxanada keçirilən "İmadəddin Nəsimi – 650" adlı kitab sərgisinin açılışı

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva çıxışında bu işi böyük fədakar əməyin nəticəsi hesab etdiyini və Heydər Əliyev Fondunun və onun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın milli mənəvi dəyərlərimizin ölkəyə qaytarılması istiqamətində həyata keçirdiyi layihələrin məntiqi davamı saydığını vurğuladı. Bu nüsxələrin bütöv bir xəzinə olduğunu qeyd edən Leyla xanım onların tədqiqatçı alimlərimiz tərəfindən ətraflı öyrəniləcəyinə və əsasında yeni-yeni elmi əsərlərin meydana gələcəyinə inandığını söylədi.

Milli Kitabxananın direktoru bu kitabların kollektivin son 8 ay ərzində çox gərgin əməyi nəticəsində əldə olunduğunu, bir çoxunun indiyədək Azərbaycan elminə məlum olmadığını bildirdi və öz tədqiqatçılarını gözlədiyinə diqqət çəkdi. Tədbirin sonunda direktor qədim Nəsimi əlyazmasının surətlərindən birini Leyla xanım Əliyevaya bu görüşdən hədiyyə olaraq təqdim etmişdir.

Sonra Mədəniyyət naziri Əbülfəs Qarayev və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva Milli Kitabxanada yeni təşkil olunan "Beynəlxalq əməkdaşlıq zalı"nın açılış mərasiminə təşrif buyurublar. Bu zalda Azərbaycana dost olan 13 ölkənin – Türkiyə, Rusiya, Belarus, Amerika Birləşmiş Ştatları, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Ukrayna, Bosniya və Herseqovina, Latviya, Litva, Tacikistan və Moldovanın Milli Kitabxanaları tərəfindən təqdim olunan və öz ölkələrinin mədəniyyətini, ədəbiyyatını, tarixini, adət ənənələrini əks etdirən kitablardan ibarət 13 ekspozisiya nümayiş olunur. Hər bir ekspozisiyanın önündə quraşdırılan kompüterdə həmin ölkənin dövlət rəmzlərini, Milli Kitabxanasının saytlarını, vikipediya materiallarını, görkəmli ədəbiyyat və mədəniyyət xadimləri haqqında materialların tammətnli bazasını əhatə edən resurslar yerləşdirilmişdir.

Bu ekspozisiyalar həmin ölkələrdən beynəlxalq kitab mübadiləsi yolu ilə alınan kitablarla və digər materiallarla daim zənginləşdiriləcəkdir.



"Nəsimi ili"nin açılış mərasimi İstanbul şəhərində Türk Ədəbiyyat Vəqfinin toplantı salonunda

Kərim Tahirov,
M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi, professor